Konfransın əsas məqsədi müstəqillik illərində Özbəkistanda təhsil sahəsində əldə olunan nailiyyətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasından, rəqabət qabiliyyətli, yüksək ixtisaslı kadrların hazırlanmasında dövlətin rolu və fasiləsiz təhsilin gələcək perspektivlərinin müəyyənləşdirilməsindən ibarət olub.

Konfransda dünyanın 40-dan çox ölkəsindən gəlmiş nümayəndələr, o cümlədən bir sıra ölkələrin təhsil nazirləri, BMT-nin yüksək səlahiyyətli nümayəndəsi, Dünya Bankı, Asiya İnkişaf Bankı və İslam İnkişaf Bankının rəhbərləri iştirak ediblər.

Beynəlxalq konfransın plenar iclasını Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov açıb. İslam Kərimov Özbəkistanda təhsil sahəsində əldə olunmuş nailiyyətlər, o cümlədən təhsil islahatları üzrə dövlət proqramının nəticələri barədə konfrans iştirakçılarına ətraflı məlumat verib.

Açılış mərasimində daha sonra Asiya İnkişaf Bankının Prezidenti Xaruhiko Kurodanın çıxışı dinlənilib. Özbəkistanın Baş nazirinin müavini A.Aripov “Özbəkistanda təhsil sisteminin islahatları və inkişafı” mövzusunda məruzə ilə çıxış edib.

Konfransda çıxış edən BMT baş katibinin müavini Noylin Heyzer, Böyük Britaniyanın Beynəlxalq Vestminister Universitetinin rektoru Cefri Pets, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru Viktor Sadovniçi, İslam İnkişaf Bankının Prezidenti Əhməd Məhəmməd Əli, ABŞ-ın Vebster Universitetinin prorektoru, Universitet nəzdində Biznes və Texnologiya Mərkəzinin direktoru Nensi Hellerud, Sinqapur Menecmentin İnkişafı İnstitutunun rektoru Erik Kuan, Yaponiyanın Hosey Universitetinin rektoru Toşio Masuda, Dünya Bankının Avropa və Mərkəzi Asiya dövlətləri ilə qarşılıqlı əlaqələr üzrə direktoru Teodor Alers, Seul Milli Universitetinin rektoru Sin Hanq Qiunun fikirləri də maraqla qarşılanıb.

Sonra konfrans 6 seksiyada işini davam etdirib. Seksiyalar “Məktəb təhsili intellektual inkişaf etmiş nəslin tərbiyəsinin əsası kimi”, “Peşə təhsili və müasir əmək bazarının formalaşması”, “Ali təhsilin inkişafının prioritetləri və ölkənin modernləşdirilməsində onun rolu”, “Müasir informasiya-kommunikasiya texnologiyaları təhsil prosesində”, “Təhsil və elm–fasiləsiz əlaqə”, “Təhsil və mədəniyyətin inkişafı” mövzularına həsr olunub.

Təhsil naziri Misir Mərdanov konfransda çıxış edib. Nazir çıxışında dünyada təhsilin inkişaf strategiyalarının işlənməsi təcrübəsi, Azərbaycanda ölkə Prezidentinin sərəncamı ilə hazırlanmaqda olan “Azərbaycan–2020: gələcəyə baxış” Konsepsiyası və onun tərkib hissəsi olan təhsil strategiyası, eləcə də son illərdə aparılan təhsil islahatları və əldə olunmuş nailiyyətlər barədə məlumat verib.

Konfrans zamanı Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov Özbəkistanın ali və orta ixtisas təhsil naziri Bahodir Xodiyev, xalq təhsili naziri Temir Şirinov, Qırğızıstanın təhsil naziri Nuriddin Saidov, Moskva Dövlət Universitetinin rektoru Viktor Sadovniçi və digər şəxslərlə görüşüb, təhsilin inkişafı sahəsində əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparıblar.

Konfransdan sonra təhsil naziri Daşkənd şəhərindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzini ziyarət edib, mərkəzin nəzdində fəaliyyət göstərən Azərbaycan tarixi və Heydər Əliyev muzeyləri ilə tanış olub.